Kaspi.-2017.-20-22 may.-S.24.

# Sözün vaqifi

Klassik poeziya ilə xalq şeirini, el-aşıq ədəbiyyatı ilə Şərq müdrikliyini öz yaradıcılığında ustalıqla birləşdirən qüdrətli Molla Pənah Vaqif bir əsrin poetik fikrinə güclü təkan verərək həm özünün, həm də özündən sonra təzə və aydın üslub müəyyənləşdirmişdir. Məhz bu səbəbdəndir ki, şairin olduqca axıcı, ahəngdar və səlis üslubda olan qoşmalarını, qəzəllərini, təcnis, müxəmməslərini uşaqdan-böyüyə hamı əzbər bilir. Şair xalqı üçün yaşamış, xalqının onun başa düşdüyü, anlayıb sevdiyi bir dillə - şeir dili ilə danışmışdır.

Vaqif yaradıcılığı Azərbaycan şeirinin elə bir dövrünə təsadüf edir ki, artıq lirik poeziya müəyyən inkişaf yolu keçib formalaşmışdı. O, artıq formalaşmaqda olan lirik şeiri xalq ruhuna, xalq zövqünə yaxınlaşdırmış, özünə qədərki klassiklərdən fərqli bir yolla addımlamışdır. Bununla da Vaqif yaradıcılığı ilə Azərbaycan şeiri tarixində yeni bir dövr başlamışdır. Xəlqilik Vaqifin şeirlərinin bütün ünsürlərinə, dilinə, bütün obrazlar silsiləsinə, təşbehlərinə, bütün tellərinə və ilmələrinə hopmuşdur:

***Üz yanına tökülübdür tel nazik,***
***Sinə meydan zülf pərişan bel nazik,***
***Ağız nazik, dodaq nazik, dil nazik,***
***Ağ əlləri əlvan hənadan, Pəri!***

Gözəlləmələri Vaqifin Klassik məhəbbət lirikası üslubundan uzaqlaşdığını, onun yaradıcılıq istedadını aydın şəkildə göstərir. Bu gözəlləmələrin müəllifi incə bir zövq əhlidir; ruh əhli bir aşiqdir; o, böyük coşqunluq və emosional qüvvə ilə real insanı, canlı bir gözəli vəsf edir:

***Sona cığasıtək sərində teli,***
***Ağ gül yarpağıtək ayağı, əli,***
***Cismi dolu, nazik bədəni, beli,***
***Görməmişəm dilbər bu nəzakətdə.***

Vaqif gözəlləmələrinin mərkəzində insan surəti durur. Şair bu surətə münasibəti ilə özünün gözəllik idealını tərənnüm edir. Vaqif gözələ, qadına yer üzündə yaşayan, sevib-sevilən həyati, canlı bir məxluq kimi yanaşırdı. Bir neçə qabarıq cizgi ilə gözəlin xarici görünüşünü göz qarşısında canlandırırdı. Lirik şeirdə bu işin öhdəsindən gəlmək böyük bir bacarıq, istedad tələb edir ki, bunu da Vaqif bacardı.

***Ağ sinəndir təxti-Süleyman kimi,***
***Sallanırsan sultan kimi, xan kimi,***
***Pərişan zülf sənə yaraşan kimi,***
***Nə mələyə, nə insanı yaraşmış.***

Vaqif dühasını, Vaqif ədəbi simasını dərk etmək, anlamaq üçün onun qoşmalarına nəzər salmaq kifayətdir. Ərəb və fars dillərini də mükəmməl bilən Vaqif doğma yurdunun gözəllərini tərif edərkən onu təmiz Azərbaycan dilində təsvir edir. Bəzən də qoşmalarında klassik poeziyamızın incə şeiriyyətindən, gözəl bədii ifadə vasitələrindən ustalıqla istifadə etmiş və poeziyamızın realist cığıra düşməsinə xidmət göstərmişdir. Onun əsərlərində özünəməxsus yeni təşbeh, istiarə, kinayə, təzad, mübaliğə və başqa bədii vasitələr yeni tərzdə o qədər gözəl işlədilmişdir ki, oxucu şairin sənətkarlığına heyran qalmaya bilmir. Yuxarıda qeyd etdiyimiz kimi, Vaqif şeiriyyətinə nikbin ruh hakimdir. Görkəmli şairə şöhrət gətirən də məhz budur. Lakin Vaqif yaradıcılığında dövründən narazılıq, taledən şikayət motivləri də yox dərəcəsində deyildir. Belə motivlər Vaqif yaradıcılığının son dövrünə təsadüf edir. Bu cür şeirlər Vaqif yaradıcılığında azlıq təşkil edir.

"Bayram oldu" rədifli qoşması Vaqifin ilk ictimai məzmunlu şeiri hesab olunur. Bu şeiri Vaqif yaradıcılığının ilk illərində, məktəbdarlıqla məşğul olduğu dövrdə yazmışdır. Şair ictimai bərabərsizliyi ustalıqla qələmə almışdır. Novruz bayramı gəlmişdir, hamı bacardığı qədər bayram süfrəsi açmağa çalışır. Ancaq şair kədərlidir:

***Bayram oldu, heç bilmirəm neyləyim,***
***Bizim evdə dolu çuval da yoxdur.***
***Dügiylə yağ hamı çoxdan tükənmiş,***
***Ət heç ələ düşməz motal da yoxdur.***



Bir çoxları "noğula, şəkərə, qəndə" batdığı halda, o, "axta zoğala" da möhtacdır. Hətta haqq sözündən dərbədər düşəcəyindən ehtiyat edir:

***Allaha bizmişik naşükür bəndə,***
***Bir söz desəm dəxi qoymazlar kəndə...***

Deyilənə görə, Qarabağ xanı İbrahimxəlil xan veziri Vaqiflə böyük bir atlı dəstəsi də daxil olmaqla Kür qırağındakı kəndlərdən birində düşərgə salır. Xanın getməsi uzanır. Camaat onlara qulluq etməkdən çox əziyyət çəkir. Bu zaman obanın ağsaqqalları Vaqifin yanına gəlir, xanın saraya qayıtmasını tezləşdirməyi xahiş edir. Vaqif isə aşağıdakı 5 bəndlik qoşmasını yazır:

***Siyahtel görmədim Kür qırağında,***
***Məgər heç yaşılbaş olmaz bu yerdə?***
***Tərlan könlüm yenə uca dağlara***
***Havalanıb, hərgiz solmaz bu yerdə.***

Lakin İbrahimxəlil xan saraya qayıtmaq istəmir. Bu zaman Vaqif növbəti şeirini- "Hayıf ki, yoxdur..." qoşmasını qələmə alır.

***Kür qırağının əcəb seyrəngahı var,***
***Yaşılbaş sonası, hayıf ki, yoxdur!***
***Ucu tər cığalı siyah tellərin***
***Hərdən tamaşası, hayıf ki, yoxdur!***

***Vaqif haqdan bilər lütfü kərəmlər***
***Belə yerdə qalan, vallah, vərəmlər.***
***Yenə yada düşdü bizim sənəmlər,***
***Getməyin binası, hayıf ki, yoxdur!***

Xan məclisində oxunan bu qoşmanı dinlədikdə sevimli vəzirinin saray üçün doğrudan da, darıxdığını görüb geriyə - saraya qayıdır. Bununla da, xalqın şairi həm dəyərli sənət nümunəsi yaratmış, həm də yerli əhalini əziyyətdən qurtarmış oldu.

Vaqif haqqında çox danışmaq olar. Buna nə söz, nə qələm çatar. Vaqif həyatı, Vaqif şəxsiyyəti, Vaqif yaradıcılığı, Vaqif sənətkarlığı çox dərin bir ümmandır. Bu ümmanın dərinliyindən gövhər çıxarmaq böyük əzm, səbir, zəhmət tələb edir. Hələ sağlığında ikən "xalq şairi", "xalq qəhrəmanı" kimi tanınan dahi şəxsiyyət elə xalqı tərəfindən qoşulan nağılların, rəvayətlərin qəhrəmanına çevrilmişdi. Mirzə Fətəli Axundzadə, Hüseyn Əfəndi Qayıbov, Haşım bəy Vəzirov, Salman Mümtaz, Səməd Vurğun Vaqif yaradıcılığına biganə qalmamış, öz yüksək ehtiramlarını göstərmişlər.

**Aybəniz Rüstəmova**